# Vətən sizinlə qürur duyur

Vətən var olduqca, qəhrəman şəhidlərimiz əsrlər boyu bugünkü və gələcək nəsillərin ürəyində, qürurunda, Vətənin hər qarışında, qalib ölkənin adında əbədi yaşayacaq. Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda şəhidlik zirvəsinə ucalanların xatirəsini yaşatmaq, onların qəhrəmanlığını gələcək nəsillərə nümunə göstərmək isə hər birimizin borcudur. Vətənimizin cəsur, igid, qəhrəman oğulları arasında şəhid mayor Vüsal Vəliyev və şəhid leytenant Güloğlan Qədimov da var.



**Bu günlərdə vətənpərvər, qəhrəman şəhidlərimiz dərin ehrimala yad edilib.**

Şəhid mayor Vüsal Vəliyevin anım günü münasibətilə keçirilən tədbirdə Şərur Rayon İcra Hakimiyyətinin başçısı Kamal Cəfərov və icra hakimiyyətinin əməkdaşları, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin əməkdaşları, Sosial Xidmətlər Agentliyinin Şərur rayon sektorunun müdiri, Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun Şərur rayon vətəndaş qəbulu şöbəsinin əməkdaşları, şəhid ailələri, qazilər, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şərur rayon idarəsinin əməkdaşı, Əlahiddə Ümumqoşun Ordusunun hərbçiləri və kənd sakinləri iştirak ediblər.

Əvvəlcə Azərbaycanın Dövlət Himni səsləndirilib, Vətən uğrunda canından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Daha sonra çıxış edənlər qəhrəman şəhidimizin həyat və döyüş yolundan, göstərdiyi igidliklərdən bəhs edib, onun vətənpərvərlik, fədakarlıq və mərdlik nümunəsinin gənc nəsil üçün örnək olduğunu vurğulayıblar.



Tədbirdə şagirdlər şəhidlərə həsr olunmuş vətənpərvərlik mövzusunda şeirlər səsləndirib, ruh yüksəkliyi və dərin ehtiram hissi ilə çıxış ediblər. Anım mərasimi şəhidin məzarının ziyarəti ilə davam edib, məzar üzərinə gül dəstələri düzülüb, ruhuna dualar oxunubdur.

Qeyd edək ki, şəhid mayor Vüsal Vəliyev Vətənimizin ərazi bütövlüyü və suverenliyi uğrunda gedən döyüşlərdə igidliklə vuruşaraq şəhidlik zirvəsinə ucalıb. O, hərbi xidmət dövründə "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi" yubiley medalı, "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalı, "Əfqanıstanda sülhməramlı missiyaya görə" medalı, Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamlarına əsasən, ölümündən sinra "Vətən uğrunda", "İgidliyə görə" medalı və "Azərbaycan bayrağı" ordeni ilə təltif edilib. Şəhidimizin göstərdiyi qəhrəmanlıq, Vətənə sədaqət və xidmət yolu xalqımızın yaddaşında əbədi yaşayacaq, onun əziz xatirəsi hər zaman dərin ehtiramla anılacaqdır.

***Kəngərli rayonunun Qıvraq qəsəbəsində Vətən müharibəsində qəhrəmancasına şəhidlik zirvəsinə ucalmış leytenant Güloğlan Nurəddin oğlu Qədimovun şəhadətinin 5-ci ildönümünə həsr olunmuş anım tədbiri keçirilib.***

Şəhidin müqəddəs məzarı önündə təşkil olunan tədbirdə rayon ictimaiyyətinin nümayəndələri, şəhid anaları və ataları, Vətən müharibəsi iştirakçıları, polislər, hərbçilər və kənd sakinləri iştirak ediblər.

Anım mərasimi şəhidlərin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi və Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Daha sonra dini icmanın sədri tərəfindən Qurani-Kərimdən ayələr oxunaraq şəhidlərin ruhuna dualar edilib.

Tədbirdə çıxış edən Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov şəhid Güloğlan Qədimovun həyat və döyüş yolundan, Vətən müharibəsində göstərdiyi igidlik və qəhrəmanlıq nümunələrindən bəhs edib. Qeyd olunub ki, Ali Baş Komandan, Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun qazandığı tarixi Qələbə şəhidlərimizin və qazilərimizin misilsiz fədakarlığı hesabına əldə olunub. Eyni zamanda, dövlət tərəfindən şəhid ailələrinə və qazilərə göstərilən diqqət və qayğı xüsusi vurğulanıb.

Daha sonra şəhid valideynləri adından şəhid Ramazan Göydağlının atası Əbülfət müəllim, Naxçıvan Qaziləri adından Ali Məclisin deputatı, qazi Təbriz Zeynalov və hərbçilər çıxış edərək şəhidlərin xatirəsinin daim uca tutulduğunu, onların qəhrəmanlığının gələcək nəsillər üçün örnək olduğunu qeyd ediblər.

Şəhid atası Nürəddun Qədimov çıxış edərək göstərilən diqqət və ehtirama görə minnətdarlığını ifadə edib.

Tədbirdən sonra şəhidlərin məzarları önünə tər qərənfillər düzülərək ruhlarına dualar oxunub. Şəhid ailələri ilə birlikdə xatirə fotosu çəkdirilib.